**UOT 327.56**

***Zaur Əliyev,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent,***
***AMEA Fəlsəfə və Sosiologiya İnstitutunun əməkdaşı,***
***Azərbaycan Universitetinin müəllimi***
***zaur.aliyev@gmail.com***
***ORCID iD: 0000-0003-4393-8894***
**https://doi.org/10.59849/2709-5096.2023.1.57**

# ERMƏNİ FİLM MÜHARİBƏSİ

***Annotasiya***

*Qlobal ideoloji mübarizədə və informasiya müharibəsində şüura ən güclü təsir vasitəsi olan kinonun spesifik rolu və mühüm payı var. Amerikan filmlərinin qlobal miqyasda gördüyü işi, əldə etdiyi nəticəni başqa heç bir vasitə ilə etmək mümkün deyildi. Dünyada ən nəhəng video portal, internet televiziyası sayılan youtube.com saytı, həmçinin digər videoportallar internet istifadəçilərinə dünyada istehsal edilmiş demək olar ki, bütün videomaterialları seyr etmək imkanı verib. Bədii film həvəskarları üçün isə bu kimi videoportallar tükənməz mənbədir. Müharibə həqiqətlərinin, torpaqları işğal olunan məmləkətin üzləşdiyi faciələrin yetişməkdə olan nəslə, eyni zamanda beynəlxalq aləmə çatdırılmasında kino əvəzsiz vasitədir. Təqdim edilən məqalədə ermənilərin Türkiyə və Azərbaycana qarşı film və incəsənət sahəsində apardıqları təbliğatı tədqiq edilib.*

***Açar sözlər:*** *film, təbliğat, kino, erməni, lobbi, mədəniyyət*

**Zaur Aliyev**

## ARMENIAN CINEMA WAR

***Annotation***

*In the global ideological struggle and information war, cinema, which is the most powerful means of influencing consciousness, has a specific role and an important share. What American films have done on a global scale, the results they have achieved, could not be done by any other means. YouTube.com, the world's largest video portal, internet television, and other video portals have given Internet users the opportunity to watch almost all video materials produced in the world. Video portals like these are an inexhaustible resource for lovers of feature films. Cinema is an indispensable tool for conveying the truths of war and the tragedies faced by the occupied country to the growing generation and at the same time to the international world. In the presented article, the propaganda carried out by Armenians against Türkiye and Azerbaijan in the field of film and art was studied..*

***Keywords:*** *film, propaganda, film, Armenian, lobby, culture*

> "Qabaqlayıcı bilik elə bir vasitədir ki, onun köməyi ilə məlumatlandırılmış hökmdarlar və müdrük sərkərdələr hücum edərək başqalarını fəth edirdilər… Qabaqlayıcı biliyi şeytandan və ya ruhdan almaq mümkün deyil… onu insanlardan almaq olar, belə ki, bu bilik düşmənin həqiqi vəziyyəti haqqındadır. Casusluğun beş növü var: yerli casuslar, daxili casuslar, ikili casuslar, geri dönməyən və geri dönən casuslar".
> **Sun Szı "Müharibə incəsənəti" traktatından**

### *Giriş*

Elm və texnikanın inkişaf etdiyi hazırkı dövrdə hərbi əməliyyatlar ərəfəsində vuruşan tərəflər bir birinin silahlı qüvvələrinin şəxsi heyətinin, həmçinin əhalinin mənəvi-psixoloji ruhunu sarsıtmaq üçün müxtəlif vasitələrindən istifadəyə üstünlük verirlər. “Təmmasız müharibə” adlandırılan informasiya müharibələrinin əmələ gəlməsini informasiyanın cəmiyyətdəki rolunun artması ilə bağlayırlar. Bugünkü cəmiyyətdə əyləncə kimi qəbul edilən kinolar eyni zamanda informasiya verir, reallığı bədii vasitələrlə çatdırır, millətin və dövlətin təbliğatçısına çevrilir. Sirr deyil ki, qlobal ideoloji müharibədə şüura ən güclü təsir vasitəsi olan kinonun spesifik rolu və mühüm payı var.

***Tarix***

Tarixə nəzər salsaq kinonu öz informasiya vasitələri kimi istifadə edən millətlər və dövlətlər də az olmayıblar. Məsələn, II Dünya müharibəsində yəhudilər öz soyqırımlarını kinofilmlər vasitəsilə dünyaya çatdıra bilirlər. Şərqi Avropada cərəyan edən hadisələrin real kino təsvirini yaradan “Pianoçu” bədii filmini seyr edən hər bir kəs sanki müharibənin ağrı-acılarını canlı olaraq yaşayır . Kinoda bədii çalarla bərabər tamaşaçını inandırmaq ustalığı hiss olunur. Tamaşaçı tək yəhudilərin soyqırımını deyil, ümumilikdə, insanlığa qarşı törədilən faciənin baş verdiyinin fərqində olur. Bütün dünya bu filmə baxandan sonra tam olaraq faşizmin insanlara və dünyaya necə təhlükəli olduğunun şahidi olurlar. Başqa bir misal, II Dünya müharibəsi illərində İtaliya, İspaniya, Almaniya və Fransada çəkilən filmlərin müharibənin gedişatını necə dəyişməsində görmək olar. Azərbaycan istehsalı olan “Uzaq sahillərdə” filmində aydın olur ki, faşistlər tez-tez kinoteatrlara gedir və almanların qələbəyə doğru irəliləməsindən bəhs edən filmlərə baxaraq ruhlanır və daha da aqressiv olurdular.

Bu siyasət əlbəttə ki daima məkrli planlara malik olan ermənilərin də diqqət mərkəzində olub. “Hər yerdə erməni var” şuarını əsas götürən erməni təbliğatı böhtan, yalan və saxtakarlıqdan ibarət fəaliyyəti ilə onlarla qonşuluqda yaşayan xalqlarla bərabər, digər xalqların da mənafelərinə toxunmaqla onları ixtiraflara və müharibələrə mübtəla edir. Harada yaşamalarından asılı olmayaraq yüz faiz erməniliyini saxlayan bu millətin təmsilçiləri hazırda Türkiyənin və Azərbaycanın əleyhinə güclü təbliğat işi aparırlar. Kütləvi informasiya vasitələri, incəsənət və digər vasitələrdən məharətlə istifadə edən erməni diasporunun təbliğatının güclü maliyyə dəstəyi var. Türkiyədə nəşr edilən “Stratejik analiz” jurnalının məlumatına görə, tək təbliğat işinin illik büdcəsi 100 milyon dolları əhatə edir. (2, s. 45-53)

Ermənilər üçün “ümumdünya statusu” qazanmış olan “erməni məsələsi”nin təbliği xristianlığın təbliği qədər böyük əhəmiyyət daşıyır. Erməni kimliyinin qorunub saxlanması, mövcudluğu və gələcək tarixi məhz “erməni məsələsi”nin təbliği nəticəsində gündəmdə qalmışdır. Adı çəkilən məsələni, baş vermiş hadisələri bir əfsanə halına gətirən erməni təbliğatı bir-birlərindən fərqli milyonlarla insanı uydurma ortaq dəyərlərlə yaxınlaşdırılaraq bir arada tutur. Beləliklə, erməni ideoloqları hesab edirlər ki, öz gələcəklərini öz düşüncələrinə görə “təminat” altına almış olurlar. Bunun üçün ilk növbədə uydurma “erməni məsələsi”nin ermənilər, daha sonra məskunlaşdıqları ölkələrin ictimai fikrində və son olaraq bütün dünyada təbliğinə ciddi fikir verirlər. Bütün dünyanı buna inandırmaq yönündə fəaliyyəti bir “missiya”, hətta “varolma səbəbi” kimi görürlər. (4, s.98)

1925-ci ildə çəkilmiş “Namus” adlı ilk erməni filmi Azərbaycanda yaşayan Aleksandr Şirvinzadənin əsəri əsasında çəkilən bir məhəbbət filmidir. Lakin filmə diqqətlə baxanda ermənilərin burada Qarabağ iddialarının olmasını görürsən. Əsərdə bir necə dəfə “erməni yurdu Qarabağa gedərik” fikrinin alt yazıda olması göstərilir. Bir neçə il əvvəl isə müxtəlif ölkələrdə erməni millətçilərinin Qarabağla bağlı təşkil etdikləri telemarafonlar, sərgilər kimi təbliğat formaları da erməni informasiya-təbliğat fəaliyyətinin digər vasitələridir. Bu istiqamətdə erməni millətçiləri kifayət qədər təşəbbüskarlıq göstərməyi bacarırlar. Televiziya və kino ekranlarına çıxarılan saxta materiallar kilsələrdə səsləndirilən moizələr, Qarabağa həsr edildiyi bildirilən musiqilər, erməni adına çıxarılan digər xalqların mədəni dəyərləri və s. erməniliyin informasiya-təbliğat vasitələri rolunu oynaya bilir. (3, 56–59)

***25-ci kadr təsiri***

Mütəxəssislərin fikirincə, erməni kino təbliğatında “25-ci kadr’’ virusundan istifadə edirlər. Bu halda obyektin aktiv diqqəti söhbətlə yox, hansısa bir filmin süjeti ilə məşğul edilir və lazımi komanda bu filmin lentinin hər 25 kadrından birində yerləşdirilir. Nəticədə, filmin qayəsi, fabulası ilə aludə olan şüur, bu aniliyə köklənə bilməsə də, iyirmibeşdəbir saniyə müddətində görünüb yox olan bu kadrdan gələn siqnallar faktik olaraq göz analizatorlarına düşüb, onu ani də olsa qıcıqlandırdığından, yuxarıda deyilən mexanizm fəaliyyət göstərməyə başlayır. Bu “25-ci kadra” da onlar ermənilərin türklər tərəfindən məhv edildiyi, tarixi olmayan “Böyük Ermənistan” uğrunda bir olmaq, onların əzabkeş və qədim xalq olması, “ümumerməni işinə” öz var dövlətindən belə keçilməsinin zəruriliyi və sairə bu kimi fikirlər yerləşdirilir.

“25-ci kadr” təsiri dünyanın bir sıra aparıcı kəşfiyyat orqanlarında qadağan olunub, hətta bəzi ölkələrdə cinayət məsuliyyəti yaradır. Buna baxmayaraq, erməni kino biznesi bundan yararlanmaqda davam edir . (2, s.761–765)

İncəsənət və kino sahəsində xaricdəki erməni təşkilatları təbliğatı diqqəti cəlb edir. Bunun üçün “İlin filmi”, “İlin mahnısı”, “İlin yazısı”, “İlin rəsmi”, “İlin kitabı”, “İlin teatrı” kimi mükafatlar təsis edilib. Bu mükafatlar ermənilərlə yanaşı, digər xalqların nümayəndələrinə də təqdim olunur. Bununla dolayı yolla öz məqsədlərini təbliğ edən erməni təşkilatları yerli KİV orqanları ilə sıx əlaqə saxlayır.

Hər hansı bir rəsm sərgisində kitab və film təqdimatında “erməni məsələsi” bölümü olmaqla və yaxud erməni musiqiçilərinin konserti zamanı uydurma “erməni soyqırımının” “qurbanları” anılır və ətrafdakılara öz məqsədlərini təbliğ edirlər. Sırf təbliğat xarakteri daşıyan sərgilər, filmlər, musiqilər, mükafatlar, səhnə əsərləri ictimai fikirdə “erməni işi”ndə dəstək qazanılmasına xidmət edir.

***Erməni filmləri***

1988-ci ilə qədər dünya ermənilərinin əsas hədəfi uydurma “soyqırımın” təbliğatı idisə bu ildən etibarən Azərbaycana qarşı ərazi iddialarının irəli sürülməsi və bu planların ermənilərin beyninə yeridilməsi, başqa sözlə isə ermənilərin Azərbaycana qarşı işğalçılıq və millətçilik ideologiyası ətrafında səfərbər edilməsi heç şübhəsiz ki, müəyyən təşkilatçılıq fəaliyyətinin aparılmasını tələb edirdi.Belə bir təşkilatçılıq fəaliyyəti olmadan ifrat millətçi ideologiyanı uzun müddət gündəlikdə saxlamaq qeyri-mümkün idi. Elə erməni millətçilərinin təcrübəsi də bunu sübut edir. Təşkilatçılıq işinin başlıca istiqamətini isə informasiya-məlumatlandırma fəaliyyəti təşkil edirdi. Bu istiqamətdə maraqlı bir hadisəni qeyd etmək lazımdır. 1982-ci ildə ABŞ-ın məşhur Hollivudunda Al Pacinonun baş rolunu ifa etdiyi film “Müəllifi! Müəllifi” (Author, Author!) böyük ekranlara çıxdı. Burada maraqlı bir məqam əsas qəhrəman İvan Travalianın xoşuna gəldiyi xanımla görüşə gedir və daha yaxından tanış olarkən özünü təqdim etməsidir:

“*Yeddi yaşıma qədər mən erməni deyildim. Yeddi yaşım olanda məni bir erməni ailəsi oğulluğa götürdü və mən erməni oldum. Ermənı doğulmurlar, erməni olurlar”.* (5, s. 213—214)

1988-ci ildən başlayaraq Azərbaycanı da hədəfə götürən erməni təşkilatları “Ararat”, “Həsrət”, “Erməni davası”, “Unudulmuş soyqırım”, “Tarixi Ermənistan”, “Vəzifə Berlin”, “Ana”, “Musa dağında 40 gün”, “Bir erməni yolu”, “Erməni davası”, “Amerika erməniləri”, “Bir səsizlik divarı: ermənilərin unudulan taleyi”, “Hər kəs burda deyil: erməni soyqrım ailələri”, “Gizli Holkost: XX əsrin ilk soyqırımı”, “Kilikiya: yenidən doğulu.”, “Xalqım hardadır”, “Amerikalı ermənilər”, “Ağrı dağ işarəsi”, “Ağrı dağına dönüş”, “Köhnə Roma Yolunda”, “Burası Ermənistan”, Girov 2” və digər filmlərin adını çəkmək olar. Ermənistan prezidentlərinin daima istifadə etdikləri “Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli üçün xarici auditoriyanın düzgün və obyektiv informasiyaya ehtiyacı vardır” sözlərini əllərində əsas tutan erməni kino biznesinin hədəfində Qarabağ və Naxçıvanın guya əzəli “erməni torpaqları” olmasını dünyaya çatdırmaqdır. Azərbaycanla əlaqəli olan filmlər aşağıdakılardır:

1. “Dağlardakı qaranlıq meşə” – Dağlıq Qarabağ hadisələrindən danışan sənədli filmin rejissoru Rocer Kupelyandır. Filmdə baş verən hadisələr açıq-aşkar təhrif olunmaqla tərsinə yozulur. Beynəlxalq hüquq normalarını pozan ermənilərin Azərbaycan torpaqlarının 20 faizini işğal altında saxlamasını inkar edən bu film erməni yalanlarının bariz nümunəsidir.

2. “Dağlıq Qarabağ: erməni tarixinin üçüncü və dördüncü cildi” – Qarabağda anadan olmuş Don Əsgəryan tərəfindən 1988-ci ildə Almaniyada çəkilən 60 dəqiqəlik sənədli filmdir. Marqarita Voskanyanla birgə baş rolları bölüşən Don Əsgəryan filmi rus və erməni dillərində səsləndirib. İngilis və alman alt yazısı ilə nümayiş etdirilən film Azərbaycan əleyhinə böhtanlarla doludur. Film bir neçə ölkədə “Etnik təmizlik-kirli gerçəyin təsviri” başlığı ilə nümayişə çıxarılıb.

3. “Avetik” – Don Əsgəryanın “Erməni soyqırımı” II Dünya müharibəsi illəri və Dağlıq Qarabağ hadisələrinə aid başqa bir filmdir. Almaniya-Ermənistan müştərək filmi olan “Avetik” saxtakar faktlarla dolu 84 dəqiqəlik rəngli ekran “əsəri”dir.

4. Ararat – Kanadalı Atom Eqoyanın uydurma “erməni soyqırımla” həsr olunan filmi türklərin “qaniçən”, “qəddar”, “zalım” olduğunu göstərir. Ermənilərin çəkdikləri əzablar filmdə şişirdilmiş halda göstərilir. 50 dəqiqəlik olan “Ararat” Rusiya, Fransa və qəribə olsa da Türkiyədə yayımlanıb. Qeyd etmək lazımdır ki, Eqoyan “Zavallı Ermənilər, Zalım Türklər” sözünü çox zaman öz əsərlərində istifadə edir.

5. Əgər hamısı…” («If Only Everyone») bədii filmi Oscar kino mükafatının “Əcnəbi” dildə ən yaxşı film” nominasiyasının ilkin siyahısına daxil edilmişdi. Filmin rejissoru Natalia Belauskenedir, ssenari müəllifləri Tereza Varjapetyan və Mikael Poqosyandır. Sonuncu həm də filmin prodüseri və baş qəhrəmanlarından biridir. Filmin süjetinə əsasən Saratovdan olan rus qız Saşa (rusiyalı aktrisa Ekaterina Şitova) Qarabağ müharibəsində həlak olmuş atasının qəbri üstündə ağac əkmək üçün Ermənistana gəlir və burada onun döyüş yoldaşları ilə tanış olur. Erməni KİV-lərinin verdiyi məlumata əsasən bu film Ermənistan prezidentinin nəzarəti və dəstəyi ilə çəkilib və Ermənistanın müstəqilliyinin 20-ci ildönümünə həsr olunub Qarabağ müharibəsindən və Ermənistan silahlı qüvvələrinin formalaşmasından bəhs edir”. Film Ermənistanın dövlət təbliğat maşınının bir məhsulu olmaqla, Qarabağ hadisələrinə erməni nəzər nöqtəsini göstərir.

6. “Suriyadan Ermənistana-Vətənin əldə edilməsi” adlı film Rusiyada istehsal edilib. Rusiyada Ocaq kinoklubu tərəfindən maliyyələşib. Burada ermənilərin və ermənilər haqqında çəkilən filmlərin təqdimatları və yayımları həyata keçirlir. Filmin süjeti Suriyada yaşayan erməni ailələrinin Ermənistana gəlmələri və oradan da Qarabağa köçmələrindən bəhs edir. Əsərin qəhrəmanı Qarabağda özünə ev tikir və ailəsi ilə birgə kilsədə Vətənlərinin keşiyində duracaqlarına dair and içirlər.

7. “Qarabağa xoş gəlmisiniz” 2007- ci ildə çəkilən film Qarabağın təbiəti və Şuşa şəhərinin havasının bütün xəstəliklərə dərman olması istiqamətində qurulub. Sənədli növ olan film Qarabağa turist axınını cəlb etməyə yönəlib.

8. “Qarabağ: gizlədilmiş xəzinə” 2010-cu ildə “Erkir media” tərəfindən çəkilib. Məqsəd Qarabağa turizm axının cəlb etməkdir.

9. “Yarımçıq kəsilən mahnı” rejissor Arik Manukyandır. Film Qarabağ müharibəsi zamanı azərbaycanlı və erməni hərbçinin dərin bir çuxura düşməsindən bəhs edir. Filmdə hər iki rolu erməni aktyorlar canlandırıblar. Filmin əsas ideyası hər iki xalqı sülhə çağırmaq olsa da, ermənilər xislətlərini özlərini büruzə veriblər. Lakin erməni rejissorun filmdə etdiyi etirafları da dəyərləndirmək lazımdır. Belə ki, dərin çuxura düşən azərbaycanlı və erməni arasında maraqlı dialoq baş verir. Erməni azərbaycanlıdan nə üçün vuruşduğunu soruşur. Azərbaycanlı cavabında vətəni üçün, ailəsi üçün vuruşduğunu söyləyir. Eyni sualla azərbaycanlı da erməniyə müraciət edir. Erməni isə cavabında nə üçün vuruşduğunu özünün də bilmədiyini söyləyir.

10. “Qarabağın yaraları” Bolqarıstan telejurnalisti Tsvetana Paskaleva erməni təşkilatlarının maliyyəsi ilə çəkib. Bu film 7 hissədən ibarətdir, 6 dildə çəkilib. 3 saat yarım davam edən filmdə Qarabağ münaqişəsindən bəhs edilir. Film Şuşanın alınması ilə yekunlaşır. “Qarabağın yaraları” adlı filmin ABŞ-da ən müasir texnologiyalar əsasında çəkildiyi, bu ölkədə patentləşdirildiyi və buraxıldığı bildirilir.

11. “Torağay Yuvası” Antonia Arslanın eyni adlı romanının motivləri əsasında çəkilib, italiyalı Paolo və Vittorio Taviani qardaşları tərəfindən səhnələşdirilib. Filmin çəkilməsinə beş, Bolqarıstan, Böyük Britaniya, İspaniya, İtaliya, Fransada yaşayan erməni təşkilatları maliyyə vəsait ayırıblar.

Bu kimi filmlərə sırasında Don Askaryanın “Komitas”, Albert Mıkırtçyanın “Şad avtobus”, Atom Egoyanın “Təqvim” filmi və digər filmləri aid etmək olar. Bu gün dünya kino sahəsində ermənilərin də sayı az deyildir. Dünyada ilk olaraq filmə çəkilən Flora Zabelledə adı ilə dünyada tanınan Zabel Mangasaryandır. İstanbulda doğulmuş və bu şəxs dünya şöhrətli rejissor Raymond Hitchcockun həyat yoldaşı olubdur. Ondan sonra Mardik Martin(ssenarist), Ed Alberyan (Amerika aktyoru), Serj Avdeikyan (fransız ssenarist, prodüssüer, aktyor), Aleks Emincyan (Metro Golden Mayer kino kompaniyasının meneceri), Ross Tiqran Bağadasryan (prodüsser), Tanya Seqaçyan (Harri Porter filminin prodüsseri), Alen Terzyan (prodüsser, Fransa Kino Akademiyasının Prezidenti, Kann kinofestivalının sədri), Armen Ciqarxanyan (aktyor), Sona Tatoyan (rejissor) Hayk Kirakosyan (rejissor) Sergey Paracanov (Sarkis Hovsepi Paracanyan, ssenarist-rejissor), Simon Abkarian (fransız aktyoru) və başqalarının adın çəkmək olar.

Ermənilər 44 günlük müharibədən sonra dünyaya özlərini yenidən məzlum, təzyiqə məruz qalmış xalq kimi qələmə vermək üçün hər cür yalana ələ atırlar. Erməni lobbisi isə bu işdə yenidən fəallığı öz üzərinə götürüb. Belə ki, britaniyalı rejissorun çəkdiyi “Artsax müharibəsi’’ndən bəhs edən və ”45 gün: Millət uğrunda mübarizə” adlı “sənədli filmi” Oskar mükafatına namizəd seçilib.

Bu barədə sənədli filmin britaniyalı rejissoru, Britaniya Kral Dəniz Piyadalarının keçmiş komandiri Emil Hessen Twitter mikrobloqunda yazıb. Qeyd edib ki, filmi “Ən yaxşı sənədli film” nominasiyasında Oskar mükafatına namizəddir ki, 2020-ci ildə Qarabağ müharibəsi zamanı “Qarabağda” işləyib. Bu adamın müharibə dövründə separatçıların yanında olması və orada çəkilişlər aparması onu göstərir ki, o, bu cəfəng filmi xaricdəki erməni lobbisinin sifarişi ilə çəkib.

Türkiyədə də məhşur olan erməni əsilli aktyorlardan Ani İpəkkaya, Anta Toros, Madam Anahit, Nübar Tərziyan, Sami Hazinses və İrma Felegyanın adın çəkmək olar. Qeyd etmək lazımdır ki, Azərbaycan xarici ölkələrdə düşmənə qarşı təbliğat aparmaq üçün kino və televiziyalardan az istifadə edir. Demək olar ki, heç istifadə olunmur. Daha çox qəzetlərə, yazılara və eyni halda beynəlxalq sərgilərin təşkilinə fikir verilir. Ona görə onların animasiya sahəsində hər hansı bir film yayımlamaqları nəyisə dəyişmir. Macarıstanda həbs olunmuş Ramil Səfərovun azadlığa çıxmasından sonra ermənilər Azərbaycanı təhqir edən cizgi filmi çəkirlər və video portallarda yayımlayıblar. Ermənilər artıq neçənci dəfədir ki, bu tip animasiya filmləri çəkərək yayımlayırlar. Türkiyə hazırda bu məsələyə ciddi fikir verməyə başlayıb. 2009–2015-ci illərdə 61 və 62-ci hökumətlərdə baş nazirin müavini vəzifəsində çalışmış Bülənt Arınç, dünya ictimaiyyətdə səs gətirəcək “Erməni məsələsi” mövzulu kino filmi və sənədlilər üçün işə başlatdıqlarını müsahibələrinin birində deyib. 2013-cü ilin dövlət büdcəsinə bununla bağlı əlavələr edildiyini deyən Bülənt Arınc “erməni məsələsini” tarixi gerçəklərlə uyğun bir şəkildə izah etməyin vacib olduğnu qeyd edib. İndi çəkilən milli filmlərə və serialların təəssüf ki, yalnız birinci hissəsinə birtəhər baxmaq mümkün olur. Hal-hazırda film çəkən şəxslər bu barədə düşünməlidirlər. Deməli, sanballı filmlər ortalığa qoymaq lazımdır. Ona görə də bu iş peşəkarlara həvalə edilməlidir.

***Azərbaycanda film sənayesi***

Keçmiş SSRİ-də, elə onun tərkibində olan Azərbaycanda da kino uzun illər incəsənətin bir növü kimi inkişaf etdirilib, təbliğatedici, maarifləndirici rol oynayıb. Xarici ölkələrdə kinodan əldə edilən gəlir milyonlarla ölçülsə də, sovetlər ittifaqında inkişaf müəyyən xətt üzrə olub. Hətta kino ilə pul qazanmaq ideyasını yaxına buraxmayıblar. Nəticədə kino indiki durumuna, başqa sözlə, tükdən asılı vəziyyətə düşüb. Hazırki dövrdə kinonun yalnız sənət deyil, həm də biznes olduğu qəbul edilir. Lakin bu sahənin dirçəldilməsi üçün heç bir iş görülmür. Kinonun inkişafından çox danışılır, lakin əsas amil marketinq-bazarın öyrənilməsi yaddan çıxarılır. Tələb və təklif müəyyənləşdirilmir. Kommersiya marağı nəzərə alınmır. Film nümayişindən dərhal sonra uğursuzların arxivinə köçürülür. Yeni çəkilən filmlərin təbliğat xarakterli tanıtımı uzaqbaşı,

hansısa bir telekanalda yaradıcı heyətin 10 dəqiqəlik təəssüratları olur. Qəzetlərdə, nəqliyyat vasitələrində reklam və ya anonsların verilməsinə maraq göstərilmir. Nə kirayələrin (prokatlar), nə də kassa gəlirləri əvvəlcədən hesablanmır. Kino sənayesini dirçəltmək lazımdır. Filmləri prokata çıxarmaqla biznesmenlərdə maraq oyatmaq mümkündür. Kino biznesinin formalaşması, güclü kompaniyaların yaranmasına səbəb olacaq. Nəticədə dövlət qoyduğu vəsaiti artıqlaması ilə çıxara bilər.

***Nəticə***

Bir də çəkilən filmlərin ciddi təbliğinə və reklamına ehtiyac var. Düzdür, bu da maliyyə tələb edən işdir. Amma nəticə verir. Filmlərin təbliği və reklamına ayrılan pulların əvəzini artıqlaması ilə çıxarmaq mümkündür. Dünya kinosunda bu işin bəhrəsini görür. 10 miyonluq büdcəsi olan filmin reklamına əlavə milyonlarla pul xərcləyirlər ki, istehsal etdikləri məhsulu sata bilsinlər. Nəticədə 100 milyonlarla dollar gəlir əldə edilir.

**İstifadə edilmiş ədəbiyyat**


1. Sadıqov Həsənbala. Erməni məsələsi: xəyanəti, deportasiyam, soyqırımını və işğalı pərdələyən yalan/ H. Sadqov.- Bakı: "Adiloğlu" nəşriyyatı,- 2012 -576 səh.
2. Is the unconscious Smart or dumb?/ Elizabeth F. Loftus & M. R. Klinger American Psychologist 47:761-65 (1992)
3. Jukes, Eric. Historical Dictionary of Russian and Soviet Cinema (2nd edition) /Jukes, Eric. Reference Reviews; Harlow Vol. 31, Iss. 6, (2017): 36-37. DOI:10.1108/RR-02-2017-0040.
4. Mahmut Niyazi Sezgin, "Geçiş Sürecinde Ermenistan Ekonomisinin Değerlendirilmesi"/ "Stratejik Analiz" dərgisi, sayı 28, Ağustos 2002, ss. 45-53.
5. Mednick, S. A. The Remote Associates Test./ The Journal of Creative Behavior, 2(3), 1968, pp. 213–214.


Daxilolma tarixi: 27.05.2023
Çapa qəbul edilmişdir: 02.06.2023